Xalq qəzeti.- 2022.- 15 iyun. S. 15

# “Son zəng”– yeni həyata başlanğıc

***Gözəl ənənədir. Hər il orta məktəblərdə “Son zəng” tədbiri keçirilir. Orta məktəbi bitirib yeni həyat yoluna qədəm qoyan onbirincilər bu tədbiri səbirsizliklə gözləyirlər. Amma uşaqlardan çoxu məktəbdən ayrılmaq istəmir. On bir il bir yerdə addımladıqları müəllimlərindən, bir sinifdə oxuyan uşaqlardan ayrılmaq o qədər də asan deyil. Biz də bu münasibətlə Bakı şəhəri 1 nömrəli məktəbdə “Son zəng” mərasimini izlədik. Bəli, bu gün onbirincilərlə yanaşı, birinci sinfə qəbul olunmuş balaca fidanlar da tədbirə qoşulmuşlar.***

Məlumat üçün bildirək ki, Bakı şəhəri Nəsimi rayonu Namiq Axundov adına 1 nömrəli tam orta məktəbin binası 1897-ci ildə inşa edilmiş və ilk özəl Bakı Qızlar Gimnaziyası bu binada yerləşmişdir. Bu gimnaziya 1917-ci ilə kimi fəaliyyət göstərmişdir. Məktəb 15 dekabr 1921-ci ildə rəsmi olaraq ilk Azərbaycan Hərbi Gimnaziya Məktəbi kimi fəaliyyət göstərməyə başlamışdır. 1924-cü ildə isə gimnaziya yeni adla Zaqafqaziya Hərbi Hazırlıq məktəbi kimi fəaliyyətini davam etdirmişdir.

1941-1945 ci illərdə isə məktəbin binasında hərbi hospital yerləşmişdir. 1953-cü ildən bu günə qədər orta məktəb kimi fəaliyyət göstərir. 1960-cı illərin axırlarında məktəbə II Dünya müharibəsində həlak olmuş zabit Namiq Axundovun adı verilmişdir. Hazırda 34 sinif otağı, 3 laboratoriya, 2 informatika kabineti və əlamətdar günlərin qeyd edilməsi, ədəbi-bədii gecələrin təşkili üçün nəzərdə tutulmuş geniş iclas zalı mövcuddur. Məktəbin pedaqoji kollektivi 75 nəfərdən ibarətdir. Onlardan 73-ü ali təhsilli, 2-si orta ixtisas təhsilli müəllimlərdir. Məktəbdə 30 sinifdə 800 şagird təhsil alır. Tədris Azərbaycan və rus dillərində bir növbəli sistemlə aparılır. Məktəbin “Son zəng” tədbirləri ilə bağlı öz ənənələri var. Hər il iyunun 14-də şagirdlər məktəbin həyətinə toplaşır, tədbirin başlanmasını gözləyirlər. Bu il də üzərlərində qırmızı lentlər asılmış onbirincilər yksək əhval-ruhiyyədədirlər. Aparıcı tədbirin başlandığını bildirir və Azərbaycanın Dövlət Himni səslənir. Sonra 44 günlük İkinci Qarabağ müharibəsində həlak olan şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilir.

Xüsusi ssenari üzrə hazırlanan tədbirdə çıxış edənlər bildirdilər ki, ölkəmizdə təhsilə xüsusi dövlət qayğısı var. Yeni məktəblər tikilir, təhsilin məzmunu yenilənir, məktəblər müasir avadanlıqlarla təchiz olunurlar.

Tədbirdə şagirdlərin hazırladığı kompozisiyalar nümayiş etdirilir.

Budur, artıq “Son zəng”in vaxtı yetişdi. Ətrafı bürüyən zəng sədası altında şagirdlər son dəfə siniflərə dönürlər.

***M.MÜKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***